

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 235 (20.889)

*14 dekabr 2013-cü il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*Rəsmi xronika*

Dekabrın 13-də Bakının Nərimanov rayonunda ucaldılan "Kitabi-Dədə Qorqud" abidəsinin və yeni salınan Dədə Qorqud parkının açılışı olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılış mərasimində iştirak etmişdir.

Prezident İlham Əliyevə park haqqında ətraflı məlumat verildi.

Dövlətimizin başçısının Bakı şəhərində park və xiyabanların əsaslı təmiri və yenidən qurulması ilə bağlı tapşırıqlarına əsasən, bu ərazidə xüsusi layihə üzrə müasir səviyyədə yeni park salınmışdır. Bu istirahət məkanı paytaxtın ən böyük parklarından biridir. Parkda sakinlərin istirahəti üçün hər bir şərait yaradılmış, geniş yaşıllıq zolaqları salınmış, müasir standartlara uyğun işıqlandırma sistemi qurulmuşdur. Dədə Qorqud parkı həm də qədim Azərbaycan tarixinin və mədəniyyətinin açıq havada nümayişi meydanıdır.

Parkda yaradılan şəraitlə tanışlıqdan sonra Prezident İlham Əliyev mərasimdə iştirak edən elm, təhsil və mədəniyyət ictimaiyyətinin tanınmış nümayəndələri ilə görüşdü.

Dövlətimizin başçısı mərasimdə çıxış etdi.



## Azərbaycan Respublikasının Qarsdakı Baş Konsulluğunda ulu öndər Heydər Əliyevin əziz xatirəsi yad edilmişdir



***Dekabrın 9-da Azərbaycan Respublikasının Türkiyənin Qars şəhərindəki Baş Konsulluğunda ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş tədbir keçirilmişdir.***

Əvvəlcə mərasim iştirakçıları ümummilli liderimiz Heydər Əliyevin Qars şəhərinin Ərzurum küçəsindəki abidəsini ziyarət etmiş, abidə önünə gül dəstələri qoymuşlar.

Konsulluğun konfrans zalında davam etdirilən mərasimdə ümummilli liderin xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra Azərbaycanın Qarsdakı Baş konsulu Ayxan Süleymanov çıxış edərək demişdir ki, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, ulu öndər Heydər Əliyevin həyata keçirdiyi siyasi xətti ölkəmizin hərtərəfli inkişafına, əhalinin sosial-rifah halının yüksəldilməsinə səbəb olmuşdur. Bu gün Azərbaycan Respublikası dahi şəxsiyyətin müəyyənləşdirdiyi yolla gedərək daha da inkişaf edir, beynəlxalq aləmdə öz nüfuzunu artırır. Artıq Azərbaycan dünyada söz sahibi olan bir dövlətə çevrilmişdir.

Azərbaycan-Türkiyə münasibətlərinin inkişafında həyata keçirilən beynəlxalq miqyaslı enerji və nəqliyyat layihələrinin əhəmiyyətini vurğulayan Baş konsul bildirmişdir ki, bütün bunların əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuşdur. Bu gün ulu öndərin siyasi xəttinin ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi ikitərəfli münasibətləri yeni inkişaf mərhələsinə yüksəltmişdir.

Tədbirdə digər çıxış edənlər də Azərbaycan və Türkiyə arasındakı əlaqələrin inkişafında ulu öndər Heydər Əliyevin xidmətlərindən danışmışlar.

Sonra Qars Qafqaz və Ardahan universitetlərinin tələbələri arasında keçirilmiş "Heydər Əliyev və Türkiyə" mövzusundakı inşa yazı müsabiqəsinin qaliblərinə mükafatlar təqdim olunmuşdur.

Tədbir iştirakçıları ulu öndər Heydər Əliyevin həyat yolundan və çoxşaxəli siyasi fəaliyyətindən bəhs edən "Dahi şəxsiyyət – Heydər Əliyev" adlı sənədli filmə baxmış, kitab və jurnallarla tanış olmuş, ehsan süfrəsi açılmışdır.

Mərasimdə Qars valisi Eyyup Təpə, Qars Qafqaz Universitetinin rektoru Sami Özcan, Ədalət və İnkişaf Partiyasının Qars vilayət rəhbəri, ziyalılar və ictimaiyyətin nümayəndələri iştirak etmiş, tədbir kütləvi informasiya vasitələrində ətraflı işıqlandırılmışdır.

**"Şərq qapısı"**

## Azərbaycan Respublikasının Təbrizdəki Baş Konsulluğunda ümummilli lider Heydər Əliyevin anım günü ilə əlaqədar tədbir keçirilmişdir

***Dekabrın 11-də Azərbaycan Respublikasının İran İslam Respublikasının Təbriz şəhərindəki Baş Konsulluğunda xalqımızın ümummilli lideri Heydər Əliyevin əziz xatirəsinə həsr olunmuş anım mərasimi keçirilmişdir.***



Mərasimdə ulu öndərin xatirəsi bir dəqiqəlik sükutla yad edilmiş, ruhuna dualar oxunmuşdur.

Azərbaycan Respublikasının Təbrizdəki Baş konsulu Əli Əlizadə çıxış edərək ulu öndər Heydər Əliyevin həyatı və siyasi fəaliyyəti barədə mərasim iştirakçılarına məlumat vermişdir. Qeyd olunmuşdur ki, ümummilli lider dövlət müstəqilliyimizin qorunub saxlanılmasında, Azərbaycanın dünya dövlətləri içərisində layiqli yer tutmasında əvəzsiz xidmətlər göstərmişdir. Dahi şəxsiyyətin rəhbərliyi ilə ölkəmizdə ardıcıl islahatlar həyata keçirilmiş, sürətli sosial-iqtisadi inkişafa və sabitliyə nail olunmuşdur. Ötən əsrin 90-cı illərinin əvvəllərində ulu öndərin səyi nəticəsində erməni işğalçılarının torpaqlarımıza hərbi təcavüzünün qarşısı alınmış, Azərbaycanın haqq səsi beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılmışdır.

Baş konsul bildirmişdir ki, ümummilli liderin müəyyənləşdirdiyi xarici siyasət xətti Azərbaycanın dünya dövlətləri arasında layiqli yer tutmasına səbəb olmuşdur. Ona görə də dahi şəxsiyyətin əziz xatirəsi dünyanın bütün sülhsevər xalqları tərəfindən dərin ehtiramla xatırlanır. Dost və qonşu ölkə olan İranda, o cümlədən Təbriz şəhərində də hər il ulu öndər Heydər Əliyevin xatirəsi böyük hörmətlə yad edilir, ruhuna dualar oxunur.

Sonra ümummilli lider Heydər Əliyevin həyat yolundan və çoxşaxəli siyasi fəaliyyətindən bəhs edən film nümayiş etdirilmiş, mərasim iştirakçıları dahi şəxsiyyətin xatirəsinə həsr olunmuş foto və kitab sərgiləri ilə tanış olmuş, ehsan süfrəsi açılmışdır.

Anım mərasimində İranın Şərqi Azərbaycan valiliyinin nümayəndələri, Türkiyənin Təbrizdəki Baş konsulu və Baş Konsulluğun əməkdaşları, eləcə də ictimaiyyətin nümayəndələri iştirak etmişlər.

**"Şərq qapısı"**

## "Heydər Əliyev lektoriyası"nın növbəti məşğələsi

Naxçıvan Dövlət Texniki Kollecində "Heydər Əliyev lektoriyası"nın "Ulu öndər Heydər Əliyev və müstəqil Azərbaycan" mövzusunda növbəti məşğələsi keçirilmişdir. Məşğələdə kollecin direktor müavini Asəf Ruşanov və kollecin tarix müəllimi Xəzər Hüseynovun məruzələri dinlənilmişdir.

Qeyd olunmuşdur ki, ümummilli liderin 1993-cü ildə siyasi hakimiyyətə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatında dönüş yaranmış, müstəqil dövlət quruculuğuna başlanmış, Azərbaycan regionda söz sahibi olan dövlətə çevrilmişdir. Müstəqilliyimizin əbədiləşdirilməsi üçün ulu öndərin işləyib hazırladığı dövlətçilik kursuna yeni neft strategiyası, balanslaşdırıcı xarici siyasət, hüquq islahatları, torpaq islahatları, cəmiyyətin demokratikləşdirilməsi, beynəlxalq sferaya inteqrasiya, iqtisadi inkişaf, sosial tərəqqi və bir çox mühüm məqamlar



daxil idi. Ümummilli lider Heydər Əliyev həmin istəklərin hər birini reallaşdıraraq milli dövlətçiliyimizin yaşamasına, müstəqilliyimizin əbədi olmasına zəmin yaratmışdır.

Sonra tədbir iştirakçıları ulu öndər Heydər Əliyevə həsr olunmuş "Ata yolu" sənədli filminə baxmışlar.

**Xəbərlər şöbəsi**

## Ulu öndər Heydər Əliyev və Azərbaycan Ordusu



***Bu mövzuda Naxçıvan Qarnizonunun Zabitlər evində ümummilli lider Heydər Əliyevin anım günü ilə əlaqədar tədbir keçirilmişdir.***

Tədbiri Naxçıvan Qarnizonunun zabiti, polkovnik-leytenant Mirqiyas Rüstəmov açmış, ümummilli lider Heydər Əliyevin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

Sonra 705 saylı tam orta məktəbin direktoru Nazim Bayramovun, "N" hərbi hissənin zabiti, kapitan Anar Nəbiyevin, AMEA Naxçıvan Bölməsinin əməkdaşı, tarix üzrə fəlsəfə doktoru Asəf Orucovun məruzələri dinlənilmişdir. Qeyd olunmuşdur ki, ümummilli liderimiz Heydər Əliyevin xalqımız qarşısında çoxsaylı xidmətləri sırasında müstəqil Azərbaycanın Silahlı Qüvvələrinin yaradılması, möhkəmləndirilməsi, döyüş hazırlığının yüksəldilməsi mühüm əhəmiyyət daşıyır. Milli Ordumuzun yaradılmasına məhz ulu öndərimizin rəhbərliyi ilə Naxçıvandan başlanmışdır.

1993-cü ildə ümummilli liderimiz Heydər Əliyevin Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıdışından sonra ordu quruculuğu sahəsində ardıcıl və məqsədyönlü tədbirlərin həyata keçirilməsinə başlanılmış, qısa müddətdə vahid komandanlığa tabe olan nizami ordu formalaşdırılmışdır.

Ulu öndər Heydər Əliyevin ordu quruculuğu sahəsində həyata keçirdiyi tədbirlər bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkəmizin dinamik inkişafı Silahlı Qüvvələrin büdcəsinin artması və nəticə etibarilə, ordumuzun gücləndirilməsi ilə müşayiət olunur. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin xüsusi diqqət və qayğısı sayəsində son illərdə ordunun döyüş qabiliyyəti daha da yüksəlmiş, maddi-texniki bazası möhkəmləndirilmiş, hərbçilərin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində mühüm addımlar atılmışdır. Milli Ordumuz günü-gündən daha da güclənir. Müdafiə sənayesi potensialının artırılması istiqamətində atılan addımlar ordumuzun gücünə güc qatır.

Bildirilmişdir ki, bu gün Azərbaycanın qüdrətli və nizami orduya malik olması məhz ümummilli lider Heydər Əliyevin gərgin zəhmətinin bəhrəsidir.

Sonra tədbir iştirakçıları "Ulu öndər Heydər Əliyev və Azərbaycan Ordusu" adlı sənədli filmə baxmışlar.

**Səbuhi HƏSƏNOV**

*16 dekabr Fövqəladə Hallar Nazirliyi işçilərinin peşə bayramıdır*

# Muxtar respublikada fövqəladə halların qarşısının alınması diqqət mərkəzindədir

**Ulu öndər Heydər ƏLİYEV: Bir hadisənin qarşısını almaq, o hadisə baş verəndən sonra onun nəticələrini aradan götürməkdən daha asandır.**

*Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamı ilə 2005-ci il dekabrın 16-da ölkəmizdə Fövqəladə Hallar Nazirliyi yaradılmışdır. Ölkə başçısının 2006-cı il 8 dekabr tarixli Sərəncamına əsasən isə Fövqəladə Hallar Nazirliyinin yaradıldığı tarix nazirlik işçilərinin peşə bayramı günü kimi təsdiq edilmişdir.*

Mülki müdafiə və ərazilərin təbii, həmçinin texnogen xarakterli fövqəladə hallardan qorunması, yanğın təhlükəsizliyinin, su hövzələrində insanların təhlükəsizliyinin, sənayedə və dağ-mədən işlərində, tikintidə, bir sözlə, əhalinin təhlükəsizliyinin təmin edilməsi üçün vacib olan işlərin həyata keçirilməsi fövqəladə hallar orqanlarının qarşısında duran əsas vəzifələrdir. Yarandığı gündən etibarən ölkəmizdə fövqəladə hallar orqanlarının maddi-texniki bazasının gücləndirilməsi, kadr hazırlığının artırılması, tabelikdəki qurumların ən müasir texnika, xilasetmə ləvazimatları, xüsusi geyimlər, texniki vasitələr və cihazlarla təminatı diqqət mərkəzində saxlanılmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2005-ci il 30 dekabr tarixli Fərmanına əsasən, Naxçıvan Muxtar Respublikasında da Fövqəladə Hallar Nazirliyi yaradılmışdır.

Ötən dövrdə nazirliyin maddi-texniki bazasının gücləndirilməsi, kadr hazırlığının artırılması və digər sahələrdə məqsədyönlü işlər görülmüş, fəaliyyət istiqamətlərinə uyğun sahələr üzrə normativ-hüquqi aktlar, yerli icra hakimiyyəti orqanları ilə qarşılıqlı fəaliyyət planları, təlimlərin, məşqlərin keçirilməsi üzrə təlimatlar, eləcə də xidmətlərin əsasnamələri işlənib hazırlanmışdır. Artıq nazirliyin əməkdaşları əhalinin və ərazilərin fövqəladə hallardan və yanğınlardan qorunması, fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılmasında fədakarlıq göstərirlər. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov demişdir: ***"Fövqəladə Hallar Nazirliyi öz fəaliyyətini fövqəladə hadisələrin qarşısının alınması, bu sahədə dövlət siyasətinin həyata keçirilməsi istiqamətində qurur. Ölkəmizdə, eləcə də muxtar respublikamızda nazirliyin fəaliyyəti tam təmin olunmuş, struktur qurumları üçün müasir iş və xidmət şəraiti yaradılmışdır. İnsanların həyatının, dövlət əmlakının, fərdi təsərrüfatların və sahibkarlıq subyektlərinin baş verə biləcək hadisələrdən qorunması nazirliyin və onun müvafiq qurumlarının qarşısında duran başlıca vəzifələrdir".***



Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin binası

Fövqəladə halların xəbərdar edilməsi, onların qarşısının alınması və nəticələrinin aradan qaldırılmasının mühüm istiqamətləri üzrə fəaliyyətin təşkilində yüksəkixtisaslı mütəxəssislərin hazırlanması vacib şərtdir. Ona görə də Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin ixtisaslı kadrlarla təminatı diqqət mərkəzində saxlanılır, bu sahədə ardıcıl tədbirlər həyata keçirilir. 2013-cü ildə Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Akademiyasında, Bakı Yanğın Texniki Kollecində, Belarus Mühəndis Komandirləri İnstitutunda və Ukrayna Milli Mülki Müdafiə Universitetində təhsil alan 15 gənc nazirlikdə müvafiq vəzifələrə təyin edilmiş, 7 nəfər isə yanğın təhlükəsizliyi orqanlarında işə qəbul edilmişdir.



Şərur Rayon Dövlət Yanğın Təhlükəsizliyi Şöbəsinin binası

Fövqəladə Hallar Nazirliyinin əməkdaşlarına müasir iş şəraitinin yaradılması istiqamətində həyata keçirilən tədbirlər 2013-cü ildə də davam etmiş, Şərur və Babək rayonlarında Dövlət Yanğın Təhlükəsizliyi şöbələrinin inzibati binaları, Mülki Müdafiə Alayında avtomobil parkı, təlim və vertolyot meydançaları istifadəyə verilmiş, fövqəladə hadisələr zamanı insanların təhlükəsizliyinin və normal yaşayış şəraitinin təmin edilməsi üçün səfərbərlik ehtiyatı anbarı yenidən qurulmuşdur. Ümumi ərazisi 61 min kvadratmetrə yaxın olan park və təlim mərkəzində Mülki Müdafiə Alayının xüsusitəyinatlı texnikalarının və avtomobillərinin saxlanılması, təlimata uyğun istifadə və istismarı, eləcə də onlara gündəlik texniki xidmətlərin göstərilməsi üçün lazımi şərait yaradılmışdır. Təlim mərkəzindəki maneələr zolağı, alpinist və pirotexnika şəhərciyi, kimya şəhərciyi, Xüsusi Riskli Xilasetmə Xidmətinin kinoloji bölməsi fövqəladə hallar zamanı idarəetmə orqanlarının və xilasetmə qurumlarının birgə fəaliyyət imkanlarının qiymətləndirilməsi, komandir-rəhbər heyətinin təbelikdə olan qüvvə və vasitələrin idarə olunması sahəsində təcrübələrinin artırılması, şəxsi heyətə fövqəladə hadisələrin nəticələrinin aradan qaldırılması üzrə praktik bilik və bacarıqların aşılanması baxımından mühüm əhəmiyyət kəsb edir.

Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi öz işini müasir dövrün tələblərinə uyğun qurmağa çalışır. Bunun üçün, ilk növbədə, nazirliyin tabeliyindəki qurumların peşəkarlıq səviyyəsi artırılır, baş verə biləcək təbii və texnogen xarakterli fövqəladə halların qarşısının alınması, nəticələrinin aradan qaldırılması və əhalinin xəbərdar edilməsi məqsədilə taktiki təlimlər və məşğələlər keçirilir.

Muxtar respublikada fövqəladə halların qarşısının alınmasında, baş verən fövqəladə hadisələrin nəticələrinin aradan qaldırılmasında və əhalinin bu istiqamətdə maarifləndirilməsində nazirliyin tabeliyindəki idarələr səmərəli fəaliyyət göstərir. Bu il Dövlət Tikintidə Təhlükəsizliyə Nəzarət İdarəsi tərəfindən 97 tikinti obyekti yoxlanmış, maarifləndirmə tədbirləri keçirilərək işlərin tikinti norma və standartlarına uyğun yerinə yetirilməsinə nəzarət edilmişdir. Həmçinin Dövlət Yanğın Təhlükəsizliyi İdarəsi və rayon (şəhər) şöbələri tərəfindən icra hakimiyyətləri, yerli özünüidarəetmə orqanları, fiziki və hüquqi şəxslər tərəfindən yanğın təhlükəsizliyi ilə bağlı müəyyən olunmuş tələblərin yerinə yetirilməsinə nəzarət edilmiş, yaşayış məntəqələrində və inzibati binalarda yanğınsöndürmə qurğularının vəziyyəti yoxlanılmış, yanğın təhlükəsizliyi qaydalarının tələblərinin pozulmasının qarşısı alınmışdır. Müvafiq dövlət orqanlarının əməkdaşları ilə birlikdə reydlər keçirilərək 879 ədəd əlavə çəkilmiş elektrik xəttinin və qeyri-standart elektrik qızdırıcılarının, 892 ədəd qeyri-standart boru ilə çəkilmiş qaz xəttinin və qaz sobalarının istismarı dayandırılmış, yaşayış məntəqələrində yanğın təhlükəsizliyinin təmin edilməsi ilə bağlı yoxlamalar keçirilərək "Şəxsi və dövlət yaşayış evlərində yanğın təhlükəsizliyi qaydaları" barədə tövsiyələr təqdim edilmiş, vətəndaşlar yanğına qarşı təlimatlandırılmışdır. Muxtar respublikada fəaliyyət göstərən 21 yanacaqdoldurma məntəqəsində, 20 şadlıq evində və 36 istehsal müəssisəsində də yoxlamalar keçirilmiş, yanğın və texniki təhlükəsizlik qaydaları haqqında maarifləndirici söhbətlər aparılmışdır.

Əhalinin və ərazilərin fövqəladə hallardan qorunması və qarşısının alınması, radiasiya təhlükəsizliyinə, sənayedə və dağ-mədən işlərində texniki təhlükəsizliyə nəzarət kimi mühüm vəzifələrin icrasının təmin edilməsi də diqqət mərkəzində saxlanılır. Nazirliyin səlahiyyət dairəsinə uyğun olaraq, istismara verilmiş 5 yeni obyekt, 87 texnoloji nəqliyyat vasitəsi qeydiyyatdan keçirilmiş, 264 təhlükə potensiallı qurğu və avadanlıqlar sertifikatlaşdırılmış, 11 maşın və mexanizm istifadədən əvvəl texniki təhlükəsizlik ekspertizasından keçirilmiş və 28 obyektdə texniki təhlükəsizliyin vəziyyəti yoxlanılmışdır. Mülki müdafiə, əhalinin və ərazilərin fövqəladə hallardan qorunması və yanğın təhlükəsizliyinin təmin olunması ilə bağlı ümumtəhsil müəssisələrində, mərkəzi icra hakimiyyəti orqanlarında, kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliklərdə, ümumilikdə, 1982 nəfərin iştirakı ilə maarifləndirici tədbirlər keçirilmiş, kütləvi informasiya vasitələrində müxtəlif mövzularda çıxışlar edilmişdir.

Nazirliyin fəaliyyəti hər zaman dövlətimiz tərəfindən yüksək qiymətləndirilmişdir. Xidməti vəzifələrinin icrasında yüksək nailiyyətlər əldə etdiklərinə görə Dövlət Yanğın Təhlükəsizliyi İdarəsinin 15 əməkdaşı Naxçıvan Muxtar Respublikasının "Rəşadətli əməyə görə" nişanı ilə təltif edilmişdir.

Görülən işlər və əldə olunan nailiyyətlər onu deməyə əsas verir ki, Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin kollektivi əhalinin təhlükəsiz yaşayışının, iş və istirahətinin təmin olunması üçün hər an hazırdır. Nazirliyin şəxsi heyəti bundan sonra da öz fəaliyyətini müasir dövrün tələbləri səviyyəsində quracaq, əhalinin təhlükəsizliyi məqsədilə təxirəsalınmaz tədbirlər həyata keçiriləcəkdir.

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti***

# AMEA Naxçıvan Bölməsinin ümumi hesabat yığıncağı keçirilib

***Dünən Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin 2013-cü ildəki elmi və elmi-təşkilati fəaliyyəti ilə bağlı hesabat yığıncağı keçirilib.***

Yığıncağı giriş sözü ilə açan AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev bölmənin elmi-tədqiqat institutlarının və bölmə tərkibində fəaliyyət göstərən digər qurumların hesabatlarının dinlənilməsinin başa çatdığını yığıncaq iştirakçılarının diqqətinə çatdırıb. Akademik AMEA Naxçıvan Bölməsinin fəaliyyəti ilə bağlı geniş hesabat məruzəsi ilə çıxış edib.



Qeyd olunub ki, hesabat ilində elmi-tədqiqat müəssisələrində 6 elmi istiqamətdə 6 problemi əhatə edən və 7 mövzuya daxil olan 34 işin 95 mərhələdə yerinə yetirilməsi nəzərdə tutulmuşdu. Tədqiqatlar 21 şöbə və 8 laboratoriyada 1 nəfər akademik, 4 nəfər müxbir üzv, 6 nəfər elmlər doktoru, 52 nəfər fəlsəfə doktoru, 5 nəfər doktorant, 3 nəfər dissertant, 17 nəfər elmi işçi olmaqla, 88 elmi və köməkçi heyət tərəfindən yerinə yetirilib. Elmi işçilərdən 6 nəfərin iş yerini dəyişməsi və 1 nəfərin vəfatı ilə bağlı planda nəzərdə tutulan 7 mərhələ üzrə tədqiqatların icrası dayandırılıb.

Ayrı-ayrı institutların əldə etdiyi uğurlara və buraxılan nöqsanlara da toxunan akademik İsmayıl Hacıyev bölmə üzrə ümumiləşdirilmiş nəticələrdən bəhs edib. Toplantı iştirakçılarının diqqətinə çatdırılıb ki, 2013-cü ildə bölmə əməkdaşlarının 6 kitab, 23 monoqrafiya, 2 metodik vəsait, 507 elmi məqalə olmaqla, 538 elmi əsəri nəşr olunub. Əsərlərdən 3 monoqrafiya, 1 kitab, 129 məqalə və konfrans materialı olmaqla, 133 əsər xaricdə çapdan çıxıb. Akademik 2013-cü ildə "Naxçıvan tarixi" çoxcildliyinin 1-ci cildinin nəşr olunmasını mühüm uğur kimi qeyd edib.

"Hesabat ilində bölmədə humanitar və ictimai, təbiət və texniki elmlər seriyalarından ibarət olan "Xəbərlər" jurnalının və "Axtarışlar" jurnalının 4 nömrəsi çapdan çıxıb", – deyən İsmayıl Hacıyev bildirib ki, ölkə Prezidentinin sərəncamı ilə ümummilli lider Heydər Əliyevin 90 illik yubileyi, eləcə də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü ili "Heydər Əliyev ili" elan etməsi ilə əlaqədar "Xəbərlər"in bir nömrəsi ulu öndərə həsr olunub. Çap olunan nömrələrdə bölmə əməkdaşlarının 170 məqaləsi işıq üzü görüb. O da vurğulanıb ki, 2013-cü ildə bölmə əməkdaşları 3 patent alıb. Bu il Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu qrant layihələri müsabiqəsində AMEA Naxçıvan Bölməsi əməkdaşlarının 3 qrant layihəsi qalib olub.

Bildirilib ki, hesabat dövründə bölmə əməkdaşlarından 1 nəfər elmlər doktoru, 1 nəfər fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dissertasiya müdafiə edib.

İldən-ilə bölmənin maddi-texniki bazasının dövlət qayğısı ilə gücləndirildiyini deyən akademik İsmayıl Hacıyev bölmədə bir sıra tədbirlərin həyata keçirildiyini qeyd edib. Bildirilib ki, Batabat Astrofizika Rəsədxanasında mövcud olan internet şəbəkəsi yenidən qurulub və fərdi kompüterlərin proqram təminatı modernləşdirilib, bölmənin ***www.ameanb.nakhchivan.az*** internet portalı yenilənib, ***www.e-kitab.ameanb.nmr.az*** ünvanlı elektron kitabxana yaradılıb, milli irsimiz və mədəniyyətimizlə bağlı elmi materialların virtual məkanda sistemli şəkildə yerləşdirilməsi işi yerinə yetirilib.

Hesabat yığıncağında Naxçıvan Dövlət Universitetinin rektoru, biologiya elmləri doktoru, professor Saleh Məhərrəmov, AMEA Naxçıvan Bölməsi Rəyasət Heyətinin üzvləri və institut direktorları çıxış edərək əldə edilən nəticələri müsbət qiymətləndiriblər.

Yığıncaqda 2013-cü ildə əldə etdikləri uğurlu nəticələrə görə bölmənin iki nəfər əməkdaşına "İlin alimi" fəxri diplomu verilib və onlar mükafatlandırılıblar.

**Elnur KƏLBİZADƏ**

# Rabitə xidmətinin səviyyəsi yüksəldilir

Muxtar respublikada əhaliyə göstərilən rabitə xidmətinin səviyyəsini yüksəltmək məqsədilə həyata keçirilən tədbirlər bu sahədə yüksək nəticələrə nail olunmasına imkan verib. Həmin tədbirlərdən Ordubad rayonuna da xeyli pay düşüb. Rayon Rabitə İdarəsindən aldığımız məlumata görə, cari ilin ilk 10 ayı ərzində rayonda rabitə xidmətinin səviyyəsini yüksəltmək üçün həyata keçirilən məqsədyönlü tədbirlər davam etdirilib. Qeyd edək ki, 2013-cü ilin ilk 10 ayı ərzində əhaliyə göstərilən informasiya və rabitə xidmətlərinin həcmi 3006,5 min manat olub ki, bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 4,4 faiz çoxdur. Cari ilin ötən dövrü ərzində 160-a yaxın abunəçiyə telefon xətti çəkilib. İnternet istifadəçilərinin də sayı gündən-günə artmaqdadır.

Ordubad rayonunun Gəmiqaya qolu üstündə yerləşən Bist, Ələhi, Xurs, Nürgüt, Nəsirvaz kəndlərində kompleks quruculuq tədbirlərinin həyata keçirilməsi ilə əlaqədar bu ünvanlarda yeni xətlər çəkilib, avtomat telefon stansiyası quraşdırılaraq rayonda olan ATS-lərin sayı 25-ə çatdırılıb. Bölgənin digər yaşayış məntəqələrində də ilin ötən dövründə cari və əsaslı təmir işləri aparılıb. Rabitəçilər abunəçilərin qış mövsümündə hansısa problemlərlə üzləşməmələri üçün qışa hazırlıq tədbirlərini başa çatdırıblar.

Müntəzəm olaraq rabitəçilər ATS-lərdə reydlər aparır, texniki göstəricilərin normativlərə uyğun olub-olmadığı yoxlanılır, sıradan çıxmış akkumulyatorlar yenilələri ilə əvəz olunur.

**Xəbərlər şöbəsi**

*Dördüncü çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin yeddinci sessiyasında bank qurumları qarşısında da bir sıra vəzifələr qoyulmuşdur. Bu vəzifələr, başlıca olaraq, elektron ödəniş sistemlərinin və nağdsız hesablaşmaların inkişaf etdirilməsi, iqtisadi sahədə fəaliyyət göstərən şəxslərin və əhalinin elektron ödəniş sistemlərindən daha fəal istifadə etməsi, dövriyyədə olan nağd pul kütləsinin həcminin azaldılması, ticarət, iaşə və digər xidmət müəssisələrində müştərilərlə hesablaşmaların ödəniş kartları vasitəsilə aparılması üçün POS-terminalların və bankomatların quraşdırılmasından ibarət olmuşdur. Eyni zamanda özəl sektorun inkişafı və sahibkarlıq subyektlərinə maliyyə dəstəyinin gücləndirilməsi məqsədilə bank və kredit təşkilatları tərəfindən verilən kreditlərin coğrafiyasının tələbata uyğun genişləndirilməsi, onların çoxsahəli və səmərəli olmasının təmin edilməsi, kreditlərin verilməsində daha münasib faiz dərəcələrinin tətbiq edilməsi də qarşıya qoyulan əsas vəzifələrdəndir.*

# Əsas diqqət nağdsız hesablaşmaların genişləndirilməsinə yönəldilib

Naxçıvanda fəaliyyət göstərən banklar və kredit təşkilatları tərəfindən 1 dekabr 2013-cü il tarixə muxtar respublikanın iqtisadiyyatına yönəldilən kredit qoyuluşu 81,4 milyon, o cümlədən qısamüddətli kredit qoyuluşu 14,6 milyon manat, uzunmüddətli kredit qoyuluşu isə 66,7 milyon manat təşkil etmişdir.

Kredit qoyuluşu, əsasən, dövlət proqramlarının icrasına, real sektorun, fərdi təsərrüfatların inkişafına yönəldilmişdir ki, bu da kənd təsərrüfatı, yerli sənaye və istehlak malları istehsalının həcminin artmasında və yeni iş yerlərinin yaranmasında mühüm rol oynamışdır.

Səmərəli kreditləşmə mexanizmi yeni istehsal və xidmət sahələrinin yaradılmasına, iqtisadi aktivliyin təmin olunmasına təsir göstərən əsas amillərdən biri olmuşdur. Bank və digər kredit təşkilatları tərəfindən 2013-cü ilin 11 ayı ərzində 41,7 milyon manat kredit verilmişdir ki, bunun da 24,8 milyon manatını uzunmüddətli kreditlər təşkil edir. Verilmiş kreditin 11,9 milyon manatı kənd təsərrüfatı, 6,1 milyon manatı sənaye, 4,1 milyon manatı tikinti, 2,5 milyon manatı kommersiya, 300 min manatı nəqliyyat, 1,4 milyon manatı maliyyə fəaliyyəti sahələrinə, 884 min manatı daşınmaz əmlakla əlaqədar ipoteka kreditlərinin, 14,4 milyon manatı isə digər kommunal, sosial və istehlak kreditlərinin verilməsinə yönəldilmişdir.

1 dekabr 2013-cü il tarixədək muxtar respublika vətəndaşlarına, xüsusilə gənc ailələrə daşınmaz əmlakla əlaqədar verilmiş ipoteka kreditinin həcmi 2 milyon 996 min manat olmuşdur.

1 iyun 2012-ci il tarixdən etibarən keçmiş SSRİ Əmanət Bankının Naxçıvan Muxtar Respublikasında olan əmanətçilərinin ərizələrinin qəbuluna və birdəfəlik fərdi ödəmələrə başlanılmış, muxtar respublika üzrə 1 dekabr 2013-cü il tarixə 37 min 531 nəfərə 13 milyon 993 min 254 manat həcmində birdəfəlik fərdi ödəmə həyata keçirilmiş və bu proses 2013-cü ilin sonunda tamamilə başa çatdırılacaqdır.

Muxtar respublikada fəaliyyət göstərən banklar tərəfindən fiziki və hüquqi şəxslərə açılmış bank hesablarının işlək hesablara çevrilməsi istiqamətində də ardıcıl tədbirlər həyata keçirilmişdir. Banklar tərəfindən 2013-cü ilin 11 ayında 2164 nəfər hüquqi, 21 min 857 nəfər fiziki şəxs olmaqla, 24 min 21 müştəriyə xidmət göstərilmişdir. Xidmət olunan hesabların 20770-i işlək hesab olmuşdur ki, onların 1244-ü hüquqi, 19526-sı fiziki şəxsdir.

2013-cü ilin 11 ayında 58 hüquqi, 7692 fiziki şəxs olmaqla, 7750 müştəriyə yeni bank hesabı açılmışdır. Açılmış bank hesablarının 7696-sı fəaliyyət göstərir.

Artıq sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslərlə yanaşı, əhali də sürətlə bank hesabları açdırır, fərdi ödəniş kartları əldə edir.

Əsassız nağd ödənişlərə yol verməmək üçün müəssisə və təşkilatlara, xüsusilə tikinti təşkilatlarına qonşu xarici ölkələrdən aldığı mal və avadanlıqların dəyərinin istənilən valyuta növündə köçürülməsi təklif olunmuşdur. Xarici valyutanın konvertasiya haqları minimuma endirilmiş, akkreditiv forması, avans ödənilməklə və digər müqavilə şərtlərinə uyğun olaraq, xarici ölkələrə mal və avadanlıqların dəyərinin ödənilməsi üçün cari ilin 11 ayı ərzində 8 milyon 44 min avro, 67 milyon 479 min ABŞ dolları, 4 milyon 108 min rus rublu və digər xarici valyutalarda vəsaitlər köçürülmüşdür.

Muxtar respublikada fəaliyyət göstərən banklar tərəfindən bankların əməliyyat kassalarına daxil olan nağd pul hasilatını artırmaq istiqamətində də lazımi işlər görülmüşdür.

2013-cü ilin 11 ayı ərzində bankların kassa mədaxili 280 milyon manat olmuş, keçən ilin müvafiq dövrü ilə müqayisədə 43,5 milyon manat artaraq 118,4 faiz təşkil etmişdir. Bankların kassa məxarici isə 716,6 milyon manat olmuş, ötən ilin müvafiq dövrü ilə müqayisədə 45,6 milyon manat artaraq 106,8 faiz təşkil etmişdir.

Muxtar respublika üzrə bankların emissiya göstəricisi 60,9 faiz olmuş və ya keçən ilin müvafiq dövrü ilə müqayisədə 3,9 faiz azalmışdır.

2013-cü ilin yanvar-noyabr ayları ərzində Mərkəzi Bankın ehtiyat fondundan bankların nağd pula olan tələbatının ödənilməsi məqsədilə 575,3 milyon manat nağd pul dövriyyəyə buraxılmışdır ki, bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə 39,5 milyon manat və ya 7,4 faiz çoxdur. Bu isə onu göstərir ki, muxtar respublikanın iqtisadiyyatına yönəldilən investisiyanın həcmi durmadan artır və sosial-iqtisadi həyat dinamik inkişaf edir.

Elektron ödəniş sistemlərindən istifadənin genişləndirilməsi, nağdsız hesablaşmaların həcminin artırılması istiqamətində də bir sıra işlər görülmüş, iqtisadi sahədə fəaliyyət göstərən şəxslərin və əhalinin elektron ödəniş sistemlərindən daha fəal istifadə etməsi, dövriyyədə olan nağd pul kütləsinin həcminin azaldılması, ticarət, iaşə və digər xidmət müəssisələrində müştərilərlə hesablaşmaların ödəniş kartları vasitəsilə aparılması üçün POS-terminalların və bankomatların quraşdırılması daim diqqət mərkəzində saxlanılmışdır.

Bəhs olunan dövrdə POS-terminalların quraşdırılması davam etdirilmiş, 1 dekabr 2013-cü il tarixə POS-terminalların sayı 227 ədəd olmaqla, keçən ilin müvafiq dövrü ilə müqayisədə 133 ədəd artmışdır.

Elektron ödəniş alətlərinin sayının və nağdsız hesablaşmaların həcminin artırılması məqsədilə 2013-2015-ci illəri əhatə edən "Naxçıvan Muxtar Respublikasında elektron ödəniş məkanının formalaşdırılması və nağdsız hesablaşmaların həcminin artırılması üzrə Tədbirlər Planı"nın icrasının təmin olunması ilə əlaqədar muxtar respublikada fəaliyyət göstərən banklar tərəfindən müvafiq tədbirlər planı işlənib hazırlanmışdır.

Görülmüş işlər nəticəsində muxtar respublikada vətəndaşlar ödəniş kartları vasitəsilə vergi və rüsumların, Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Dövlət Yol Polisi, pasport və şəxsiyyət vəsiqəsi alınması üçün rüsumların, Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu və onun yerli şöbələrinə sosial sığorta haqlarının, mobil və stasionar rabitə üzrə xərclərin, internet ödənişlərinin və gömrük rüsumlarının ödənilməsini elektron ödəniş formasında apara bilərlər.

Bu il oktyabr ayının 25-i və 26-da Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsində Azərbaycan Mərkəzi Bankının və Bank Tədris Mərkəzinin ekspertlərinin və muxtar respublikada fəaliyyət göstərən bank və bank filiallarının, Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyinin, "Naxçıvanpoçt" Məhdud Məsuliyyətli Cəmiyyətinin, Dövlət Energetika Agentliyinin, "Naxçıvanqaz" İstehsalat Birliyinin əməkdaşlarının iştirakı ilə "Elektron ödəniş məkanının formalaşması və ödəniş alətləri ilə iş" mövzusunda ikigünlük kurs keçirilmişdir. Kursun keçirilməsində əsas məqsəd muxtar respublikada hər bir təsərrüfat subyektinin və geniş əhali təbəqəsinin elektron ödəniş xidmətlərindən daha fəal istifadəyə təşviq edilməsi, maliyyə xidmətlərinə çıxış imkanlarının artırılması, iqtisadi dövriyyədə olan pul kütləsinin nağdsız dövriyyəyə cəlb edilməsi, əhalinin nağdsız hesablaşmalara keçid vərdişlərinin formalaşdırılması, dövlət orqanlarının və digər külləvi xidmət qurumlarının daxili informasiya sistemlərinin elektron ödəniş sistemlərinə texnoloji inteqrasiyasının təmin olunmasından ibarət olmuşdur. Eyni zamanda dövlət qurumlarının korporativ informasiya sistemlərinin Naxçıvan Muxtar Respublikası "elektron hökumət" portalının infrastrukturuna inteqrasiyasının təmin edilməsi, vergi, rüsum, sosial sığorta haqları, kommunal xidmətlər, həmçinin digər ödəniş və yığımların nağdsız qaydada aparılmasının həyata keçirilməsi, ödəniş alətlərindən və xidmətlərindən istifadənin kütləvi hal alması, əhalinin, kiçik və orta biznes subyektlərinin elektron ödəniş xidmətlərindən istifadə aktivliyinin daha da artırılması üçün banklar tərəfindən POS-terminalların quraşdırılması, bu istiqamətdə kompleks stimullaşdırıcı tədbirlərin həyata keçirilməsi üzrə işlər aparılır.

Cari ilin 11 ayında elektron ödəniş alətlərinin və nağdsız hesablaşmaların həcminin artırılması məqsədilə Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsi tərəfindən mütəmadi olaraq yerli mətbuat, radio və televiziya vasitəsilə müvafiq maarifləndirmə işləri aparılmışdır.

Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsi və Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyi əməkdaşlarının iştirakı ilə ticarət, iaşə və digər xidmət müəssisələrində quraşdırılmış POS-terminallardan müştərilərin istifadəsi üzrə monitorinq aparılmış, nağdsız əməliyyat aparmayan malsatan və xidmət göstərən sahibkarlarla xüsusi maarifləndirici görüşlər keçirilmişdir.

Vətəndaşlara müasir bank xidməti göstərilməsi məqsədilə 89 ədəd bankomatla xidmət göstərilmiş, o cümlədən 50-si Naxçıvan şəhərində, 39-u isə rayon mərkəzlərində və böyük kənd yaşayış məntəqələrində olmaqla, muxtar respublika əhalisi tamamilə bu xidmətlə əhatə olunmuşdur. Eyni zamanda əlavə böyük kəndlərdə bankomatların qurulması istiqamətində işlər aparılır.

Muxtar respublika üzrə əməkhaqqı, pensiya və fərdi ödəniş kartı alanların sayı ötən ilin müvafiq dövründə 160 min 660 ədəd təşkil edirdisə, hazırda ödəniş kartlarının ümumi sayı 181 min 883 ədədə çatmışdır. Bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 21 min 223 ədəd artım deməkdir. Vətəndaşlara xüsusilə kənd yerlərində əməkhaqqı, pensiya və müavinətlərin tamamilə ödəniş kartları vasitəsilə ödənilməsinin təşkili daim diqqət mərkəzində saxlanılır.

Əməkhaqqı və pensiyaların, sosial müavinətlərin ödənilməsi, əsasən, ödəniş kartları ilə aparılır. Bu rəqəm pensiya və müavinətlər üzrə 97,5 faiz təşkil edir. Qeyri-dövlət sektorunda əməkhaqlarının 27,5 faizi ödəniş kartları vasitəsi ilə verilir.

Cari ilin əvvəlindən banklar Dövlət Sosial Müdafiə Fondu, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə müqavilə bağlayaraq 52,3 min pensiyaçının, 12,3 mindən çox sosial müavinət alanların ödəniş kartlarının əhaliyə çatdırılması və dəyişdirilməsini öz üzərinə götürmüşdür. Bu xidmətlərə görə də heç bir əlavə xidməthaqqı alınmır.

Nağdsız hesablaşmalara keçidlə əlaqədar olaraq, əməkhaqqı, pensiya və digər sosial ödəmələrin ödəniş kartları ilə verilməsi ilə yanaşı, dövlət orqanlarının inzibati xərclərinin ödənişində 100 faiz hüquqi şəxslərə verilən korporativ kartlardan istifadə olunur.

Hazırda Naxçıvan şəhərində və rayon mərkəzlərində fəaliyyət göstərən böyük ticarət və xidmət obyektlərində birbaşa nağdsız əməliyyatlar aparılması məqsədilə yeni POS-terminalların quraşdırılması davam etdirilir.

***Bütün bu tədbirlərin həyata keçirilməsi nağd pul dövriyyəsinin məhdudlaşdırılmasında, təsərrüfat subyektlərində maliyyə intizamının gücləndirilməsində, yüksək ödəniş mədəniyyətinə malik cəmiyyətin formalaşdırılmasında mühüm rol oynayacaqdır.***

**Elçin ƏLİYEV**
*Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin aparıcı mütəxəssisi*

# Karbon Qazı Zavodunun ixrac potensialı artıb

***Muxtar respublikanın bütün ehtiyatlarından səmərəli istifadə olunmaqla daxili bazarın tənzimlənməsində, tələbatın yerli istehsal hesabına ödənilməsində və idxaldan asılılığın azaldılmasında, xaricə valyuta axınının qarşısının alınmasında, əhali tələbatının daha dolğun ödənilməsində yerli istehsalın əvəzsiz rolunu nəzərə alaraq muxtar respublikada kompleks tədbirlər həyata keçirilmiş, yeni istehsal və xidmət sahələri yaradılmışdır. Belə istehsal sahələrindən biri də 2008-ci ilin dekabr ayından fəaliyyət göstərən "Karbon Qazı Zavodu" Açıq Səhmdar Cəmiyyətidir.***

Özəl bölməyə göstərilən dövlət qayğısından bu müəssisə də bəhrələnmiş, 2007-ci ilin mart ayında Sahibkarlığa Kömək Fondundan 680 min manat dövlət maliyyə dəstəyi göstərilmişdir. İkimərtəbəli inzibati və istehsal binalarından ibarət olan müəssisədə əsaslı təmir və yenidənqurma işləri aparılmışdır. Qaz mənbəyindən zavodadək 2650 metr boru xəttində təmir işləri görülmüşdür. Müəssisədə Rusiya və Ukraynadan alınmış müasir texnoloji avadanlıqlar quraşdırılmışdır ki, bu, görülən işin daha keyfiyyətli, sürətli və yüksək səviyyədə aparılmasına imkan yaratmışdır. İstehsal və köməkçi sahələrin tikintisinə, həyətyanı sahənin abadlaşdırılmasına 775 min 500 manat, avadanlıqların alınmasına isə 320 min manat, ümumilikdə, 1 milyon 95 min 500 manat vəsait sərf olunmuşdur.

Məlumat üçün qeyd edək ki, muxtar respublikanın maye karbon qazına olan illik tələbatı 2800 tondur. İllik istehsal gücü 6300 ton maye karbon qazı və 50 ton quru buz olan müəssisədə istehsal edilən məhsul ölkəmizin digər regionlarında da satışa çıxarılır və gələcəkdə xaricə ixrac olunması planlaşdırılır. Bu məqsədlə müəssisənin balansındakı maye karbon qazını daşımaq üçün 2 ədəd 12 tonluq və 1 ədəd 6 tonluq avtosisternlərdən, eləcə də 2009-cu ildə alınmış soyuducu kameralı "Mitsubishi" markalı quru buzdaşıyan texnikadan səmərəli istifadə olunur. 2010-cu ilin mart ayında Sahibkarlığa Kömək Fondundan əlavə olaraq 350 min manat güzəştli kredit verilmişdir ki, bu vəsait də yeni texnikaların alınmasına yönəldilmişdir. İsveçin "SKAYNA" firmasının istehsalı olan 2 ədəd çəkici avtomaşın və Türkiyənin "ISISAN" firmasının istehsalı olan yüksək texniki göstəricilərə malik 2 ədəd avtosistern alınıb gətirilmişdir. Bu da istehsal olunan məhsulun vaxtlı-vaxtında sifarişçilərin ünvanlarına çatdırılmasına əlverişli şərait yaradır.

"Karbon Qazı Zavodu" ASC-nin direktoru Elman Seyidov bildirdi ki, müəssisədə Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsində qeydiyyatdan keçmiş laboratoriya fəaliyyət göstərir. Bu da istehsal edilən məhsulun keyfiyyətinə nəzarət etməyə imkan verir. Xammalın qəbulundan satışa çıxarılmasınadək bütün texnoloji proseslərə, istehsal olunan karbon qazının, quru buzun keyfiyyətinə və sanitar-gigiyenik qaydalara ciddi əməl olunur. Maye karbon qazı 6 kiloqramdan 25 kiloqramadək müxtəlif çəkilərdə balonlarda və çənlərdə, quru buz isə xüsusi taralarda sifarişçilərin ünvanlarına göndərilir. Müəssisədə istehsal edilən maye karbon qazı və quru buz mineral sular, sərinləşdirici içkilər istehsal edən müəssisələr, tibb ocaqları, ərzaq məhsullarının istehsalı və daşınması ilə məşğul olan şirkətlər tərəfindən rəğbətlə qarşılanır. Elə bu səbəbdəndir ki, müəssisədə istehsal olunan məhsullara tələbat artmış, quru buz cari ildə sifarişə uyğun olaraq Bakı şəhərində fəaliyyət göstərən şirkətlərə də göndərilmişdir. Müqayisə üçün qeyd edək ki, "Karbon Qazı Zavodu" ASC əvvəllər ölkəmizin digər regionlarında fəaliyyət göstərən 7-8 müəssisəyə və ya şirkətə karbon qazı satırdısa, hazırda bu rəqəm 40-ı ötmüşdür.

Bazar iqtisadiyyatının tələblərinə uyğun keyfiyyətli məhsul istehsal etmək əzmi ilə çalışan kollektiv maye karbon qazı və quru buza artan tələbatın ödənilməsi üçün mövcud imkanlardan səmərəli istifadə etməyə səy göstərir. Ümumilikdə, müəssisədə ötən ilin müvafiq dövrü ilə müqayisədə cari ilin ilk 10 ayında 10 faiz çox məhsul istehsal edilib sifarişə uyğun şirkətlərə çatdırılmışdır. Hazırda müəssisədə tələbata uyğun olaraq istehsal edilən məhsulun 45 faizi muxtar respublikada, 55 faizi isə Bakı şəhərində və ölkənin digər regionlarında fəaliyyət göstərən sifarişçi müəssisələrə göndərilir.

Cəmiyyətin direktoru onu da bildirdi ki, Bakı və Quba şəhərlərində müəssisənin balondoldurma məntəqələri fəaliyyət göstərir. Hazırda müəssisədə 27 nəfər çalışır. Gələcəkdə müəssisənin fəaliyyətinin daha da genişləndirilməsi planlaşdırılır.

✍ **Kərəm HƏSƏNOV**

Milli dəyərlərimizi öyrənək və yaşadaq

# Hər evdə xalça toxuna bilər

***Naxçıvan Dövlət Xalça Muzeyinin yenidən qurulmasından sonra bu mədəniyyət müəssisəsində olmaq, yenilikləri gözümüzlə görmək istədik. Bundan əvvəl də dəfələrlə olduğumuz muzey, doğrudan da, yeniliklərlə dolu idi. Muzeydə xalçaçılıq sənətinin öyrənilməsi, təbliği, gələcək nəsillərə ötürülməsi istiqamətində xeyli iş görülüb.***



Burada sərgilənən müxtəlif xalça nümunələri tariximizi, mədəniyyətimizi, incəsənətimizi, xalqımızın məişət tərzini özündə əks etdirir, ulularımızın təfəkkürünü, yaratmaq istedadını ortaya qoyur.

Xalça Muzeyi ilə yenidən tanışlıqda öyrəndim ki, muxtar respublikanın Şərur, Şahbuz, Ordubad və Culfa rayonlarında bu gün də xalçaçılıqla məşğul olunur. Bir vaxtlar Ordubad Rayon Peşə Məktəbində bu sənət gənclərə öyrədilib. Ordubadda bu sahəyə bağlılığın ifadəsidir ki, Mirhəsən Seyidovun rəhbərlik etdiyi "Nicat" Elm İstehsalat Müəssisəsinin xalça istehsalı sahəsi bölgədə qədim ənənələrə malik olan xalçaçılığı yaşatmaqdadır. Buna görə də üz tutduq Ordubad rayonuna.

Müəssisənin rəhbəri Mirhəsən Seyidovla xalça istehsalı sahəsində görüşdük. O, öncə muxtar respublikada milli dəyərlərimizin tədqiqi, qorunması istiqamətində həyata keçirilən tədbirlərdən bəhs etdi. Son illər bu sahədə görülən işlərin onu da bir ziyalı kimi sevindirdiyini dilə gətirdi. Bildirdi ki, 2011-ci il yanvar ayının 14-dən Ordubad şəhərində ilkinliyi, qədim arxitektura üslubu saxlanılmaqla yenidən qurulan bir neçə yeraltı abidənin açılışı onların fəaliyyətinə yaşıl işıq yandırıb. Açılış mərasimində iştirak edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri müəssisəyə milli naxışlardan istifadə olunaraq hədiyyəlik xalçaların toxunmasını, muxtar respublikamızda fəaliyyət göstərən xalçaçılıq sexləri ilə təcrübə mübadiləsinin aparılmasını tövsiyə edib. XIX əsrin ikinci yarısında ordubadlı Mənsur ağa tərəfindən inşa edilən həmin binada istehsal sahəsi üçün hərtərəfli şərait yaradılıb.

Onu da öyrəndik ki, Mirhəsən Seyidov 1993-cü ildən bu sahə ilə məşğuldur. Həmin il Ordubad Elektron Zavodunda yaradılmış xalça istehsalı sahəsinin məhsulları bu gün də ordubadlıların evlərinin bəzəyidir. O vaxt istehsal sahəsində 30 hana quraşdırılıb. Burada 40 nəfər işlə təmin edilib. Müəssisə 2000-ci ilə kimi fəaliyyət göstərib. Müxtəlif səbəblər üzündən öz fəaliyyətini dayandırıb. Muxtar respublikada müxtəlif xalq yaradıcılığı sahələrinin inkişafına göstərilən yüksək dövlət qayğısı onu yenidən bu sahə ilə məşğul olmağa sövq edib.

Naxçıvanda xalçaçılığın tarixindən danışan M.Seyidov bildirdi ki, istər xovlu, istərsə də xovsuz xalça məmulatları Naxçıvan xalçaçılıq məktəbinin qiymətli məhsullarıdır və özünəməxsus inkişaf mərhələsi keçib. Naxçıvan xalçaçılıq məktəbində daha çox butalardan, rəmzi çeşnilərdən istifadə edilib. Xalçatoxuma növlərindən şaquli istiqamətli zolaqlarla bəzədilmiş cecim xovsuz xalçaların əsas istehsal mərkəzi tarixən Ordubad olub. Əsasən, ipək liflərdən toxunan bu xalçalar ağ, yaşıl, qırmızı, sarı, mavi və sair rəngli zolaqların növbələşməsi ilə bəzədilib, zəriflik baxımdan qumaş təsəvvürü yaradıb. Vaxtilə daha çox Ordubadda inkişaf etdirilən xalçaçılıq nümunələri mürəkkəb dolama texnikası ilə toxunub, həm renginə, həm də bədii xüsusiyyətlərinə görə digər xalça məktəblərinin məhsullarından seçilib. Bütün bunları öz fəaliyyətində əsas götürən bu xalça istehsalı sahəsində, əsasən, kiçik xalçalar toxunur. Bu xalçalarda Naxçıvanın qədim tarixi abidələri əks olunub. Dörd xalçada Möminə xatın abidəsi üzərində olan 4 möhürdən istifadə edilib. Haçadağ, Hüseyn Cavid türbəsi, Qeysəriyyə, Gülüstan və digər abidələrimiz də xalçalarda öz əksini tapıb. Məqsəd muxtar respublikada olan bütün tarixi və təbiət abidələrini xalçalarda yaşatmaqdır.

Sahibkar müxtəlif çeşni və butaların hazırlanmasında Ordubadda təsviri sənətin müxtəlif sahələri ilə məşğul olan Cabir Cabbarova minnətdarlığını bildirdi. Qeyd etdi ki, bu gün Ordubad rayonunun müxtəlif kəndlərində – Tividə, Biləvdə, Azada, Azadkənddə, Nüsnüsdə, Gənzədə, Vənənddə, Əylisdə və başqa yaşayış məntəqələrində vaxtilə bu sənətlə məşğul olan insanlar yaşayırlar. Bu gün onların qüvvəsindən istifadə edərək kəndlərdə xalça istehsalı müəssisəsi yaratmaq olar. Bu müəssisələrdə onlarla insan özünə iş yeri tapar. Belə müəssisələri yaratmaq həm də xalçaçılığı yaşatmaq, xalçaçılığı yaşatmaq isə xalqımızın milli-mənəvi dəyərlərini yaşatmaq deməkdir.

Ordubada gəlmişkən bu sənətlə məşğul olmuş insanlarla görüşmək, xalçatoxuma prosesini öyrənmək istədim. Azadkənd sakini Elmira Babayeva bildirdi ki, yayın sonunda, əsasən, avqust ayında (buna oğlaqqıran dövrü də deyilir) qoyunlar qırxılır, yun yuyulur, əyrilir, xalça üçün nəzərdə tutulmuş rənglər tapılaraq rənglənilirdi. Bundan sonra hana qurulmasına başlanılırdı. Xalçanın toxunmasına tayfanın qadınları cəlb olunardılar. Bir tayfada ən çoxu 2 hana qurulardı, üçüncü hananı qurmağa hazırlaşana "işə pəl vurmaq" deyilirdi. Çünki "iməci" adlanan köməkçilərin eyni vaxtda ancaq 2 hana arxasında işləməyə gücləri çata bilirdi. Hər hananın bir dəstə başçısı olurdu. Hanada xalça toxunmasına başlanmamış ilk olaraq dəstəbaşı digər tayfalardan gəlin gəlmiş qadınlara tapşırığını verirdi ki, həmin tayfaya xəbər olunsun. Çünki xalça toxunmasına başlanılan məqamda işin üstünə gəlmək uğursuzluq sayılırdı. Bu minvalla xalça toxunmasına başlanılırdı.

Elmira Babayeva deyir ki, o vaxt onların toxuduqları xalçalar istifadə baxımından iki yerə bölünürdü: yerə salınan və divara vurulan xalçalar. Yerə salmaq üçün toxunan xalçalarda həmin tayfalara məxsus rəmzlərdən istifadə olunmurdu ki, ayaqlanar.

***<u>P.S.</u> Qeydlərimi qələmə alarkən yadıma uşaqlıq illərində nənəmin və qonşu Məleykə xalanın xalça toxumaqları düşdü. Onu da deyim ki, dünyalarını dəyişmiş o ağbirçəklərin toxuduqları xalçalar indi də qiymətli sərvət kimi qorunub hər iki evdə saxlanılır. Xalçaların üstündə birindən gözəl çeşnilər, butalar var. Hər birində insan təfəkkürünün məhsulu olan naxışların ortasında "1966-cı il" toxunub. Bu tarix xalçaların toxunduğu tarixi göstərir.***

***Deməli, bu gün hər bir evdə belə hana qurub xalça toxumaq imkanlarımız var. Hər kəndli evi bir xalçaçı sexidir. Bu iş üçün qayğı da yetərincədir. Qalır ki, qollarımızı çırmalayıb bu işə girişək.***

✍ **Muxtar MƏMMƏDOV**

## Aztəminatlı ailələrlə görüşlər davam etdirilir

Cari ilin fevral ayının 4-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində "2012-ci ilin yekunları və qarşıda duran vəzifələr" mövzusunda keçirilən müşavirədə aztəminatlı ailələrin sosial problemlərinin həlli üçün aidiyyəti orqanlarla birlikdə Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinə də müvafiq tapşırıqlar verilib. Qarşıya qoyulan vəzifələrdən biri də xüsusi qayğıya ehtiyacı olan ailələrə dəstək göstərilməsidir. Bununla bağlı komitə əməkdaşları Səhiyyə, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinin əməkdaşları ilə birgə Şahbuz rayonunun Badamlı qəsəbəsində yaşayan Zeyniyevlər ailəsində olmuşlar. Aztəminatlı ailənin yaşayış vəziyyəti ilə maraqlanılmış, ailə üzvləri tibbi müayinədən keçirilmiş, onlara məişət əşyaları və ərzaq payı verilmişdir. Ailə üzvləri göstərilən qayğıya görə dövlətimizə minnətdarlıqlarını bildirmişlər.

Məlumat üçün bildirək ki, adıçəkilən müşavirədən ötən müddət ərzində muxtar respublikada yaşayan 22 tənha ahıl, əlil qadına və 83 aztəminatlı ailəyə baş çəkilmiş, onların ehtiyaclarının ödənilməsinə köməkliklər göstərilmişdir.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## Turun mərkəzi oyununda "Araz-Naxçıvan" "Neftçala"nın qonağı olacaq




Futbol üzrə Azərbaycan I divizionunun 14-cü turu çərçivəsində "Araz-Naxçıvan" futbol komandası səfərdə "Neftçala" futbol komandasının qonağı olacaq. Nəriman Nərimanov adına Neftçala Şəhər Stadionunda keçiriləcək matç turun mərkəzi oyunu hesab edilir. Hazırda turnir cədvəlində liderlik edən Naxçıvan təmsilçisi rəqibindən 11 xal irəlidədir. Neftçala klubu isə son iki mövsümdən fərqli olaraq, uğursuz çıxışı ilə diqqəti cəlb edir.

"Neftçala" futbol komandası son 3 turdur ki, qələbə üzünə həsrətdir. Sonuncu dəfə doğma arenada "Mil-Muğan"ı məğlub edən (1:0) qara-ağlar o vaxtdan bəri çempionatda qələbə qazana bilmirlər. Keçirdiyi 3 oyunda "Qaradağ-Lökbatan" və "Şəmkir"lə heç-heçə edən neftçalalılar öz meydanlarında "Turan-T"yə uduzublar. Ümumiyyətlə, komandanın cari mövsümdəki "ev" oyunlarına baxdıqda maraqlı statistika ilə üzləşirsən. Belə ki, baş məşqçi Bəhram Şahquliyevin komandası doğma arenada keçirdiyi 7 oyunun 3-də məğlub olub ki, bu da onların turnir cədvəlində irəliləməsinə maneçilik törədib.

"Araz-Naxçıvan"la matç öncəsi "Neftçala"nın heyətində olan itkilər diqqətdən qaçmır. Belə ki, komandanın vuran ayağı və hazırda "Araz-Naxçıvan"ın hücumçusu David Canıyevdən sonra bombardirlər siyahısında 9 qolla ikinci olan Ceyhun Abdullayev bu oyunu buraxmalı olacaq. Bir neçə tur öncə zədələnən hücumçunun zədəsi hələ tam olaraq bərpa olunmayıb.

"Araz-Naxçıvan"a gəlincə, Əsgər Abdullayevin yetirmələri Naxçıvana güclü qarın yağmasına baxmayaraq, məşqlərini ara vermədən davam etdirirlər. Gündə bir dəfə məşq edən qırmızı-ağların əsas hədəfi qələbədir. Bu gün günorta saatlarında Neftçalaya yola düşəcək komandamız Salyan Olimpiya İdman Kompleksində qalacaq və oyun öncəsi son məşqini də elə bu kompleksin meydançasında çıxacaq. "Araz-Naxçıvan"ın heyətində Emin İmaməliyevin zədəli olması məşqçilər korpusunu narahat edir. Kapitanın bu görüşdə meydana çıxıb-çıxmayacağı oyundan öncə həkimlərin son rəyindən sonra bəlli olacaq.

Qeyd edək ki, "Neftçala"-"Araz-Naxçıvan" matçı dekabrın 15-də saat $14^{00}$-də keçiriləcək.

✍ **Ceyhun MƏMMƏDOV**

## "Ağa Məhəmməd şah Qacar" Naxçıvan səhnəsində

***Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında yazıçı-dramaturq Əli Əmirlinin ikihissəli "Ağa Məhəmməd şah Qacar" tarixi dramı əsasında hazırlanacaq tamaşanın məşqlərinə başlanılmışdır. Tamaşanın rejissoru Xalq artisti Kamran Quliyev, quruluşçu rəssamı Xalq rəssamı Hüseynqulu Əliyev, musiqi tərtibatçısı isə Azərbaycan Respublikasının əməkdar mədəniyyət işçisi İmamqulu Əhmədovdur.***

Əli Əmirlinin bu pyesində dövrün hadisələri ilə bərabər, Qacarın fəlsəfi düşüncələri də öz əksini tapmışdır. Əsərdə Şah Qacarın təsadüf nəticəsində deyil, bacarıq və savad sayəsində hakimiyyətə gəlməsi, tarixi reallıqlar, hökmdarın gələcəyə baxışı ön plana çəkilmişdir. Müəllifin tarixi reallıqlara daha çox diqqət yetirməsi Qacar obrazını tamaşaçıya çatdırmaq baxımından ona münasibətin dəyişilməsinə xidmət edir.

Tamaşaya hazırlanan səhnə əsərində Ağa Məhəmməd şah Qacar obrazına teatrsevərlər Naxçıvan Muxtar Respublikasının əməkdar artisti Səməd Canbaxşıyevi görəcəklər. Xalq artisti Yasəmən Ramazanova hökmdarın anası Ceyran obrazını canlandıracaqdır. Tamaşada Xalq artisti Rza Xudiyev (Cəfərqulu xan), Azərbaycan Respublikasının əməkdar artistləri Bəhruz Haqverdiyev (xidmətçi), Əbülfəz İmanov (Şeyx Cəfər Tonkabuni), Xəlil Hüseynov (axund Hacı Babək), aktyorlar Zakir Fətəliyev, Səyyad Məmmədov, Elnur Rzayev, Nurbəniz Niftəliyeva da rol almışlar.

Hazırda tamaşanın məşqləri aparılır. Tamaşanın gələn il teatrsevərlərə təqdim edilməsi nəzərdə tutulmuşdur.

**Əli RZAYEV**

### Elan

Naxçıvan "Taxıl və Çörək Məmulatları" Səhmdar Cəmiyyəti ləğv edildiyindən öhdəkarların və səhmdarların nəzərinə çatdırılır ki, 2 (iki) ay müddətində cəmiyyətə müraciət etsinlər.

**Ünvan: Naxçıvan şəhəri, "Azərbaycan" küçəsi**

### İtmişdir

"Ayxan-2010" Məhdud Məsuliyyətli Cəmiyyətinə aid (VÖEN-0200561171) qeydiyyat sənədləri, möhür və künc ştampı itdiyindən etibarsız sayılır.

* * *

Şahbuz rayonunun Kükü kənd sakini Şükürov Bəxtiyar Allahverdi oğlunun adına olan JN-027^A inventar nömrəli, 10500058 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

* * *

Piriyev Əli Ramiz oğlunun adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

### Allah rəhmət eləsin

Naxçıvan Muxtar Respublikasının vergilər naziri Əli Mahmudov və nazirliyin kollektivi iş yoldaşları Əli Şabanova, dayısı
**CƏFƏRİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzinin həkimlərindən Nüşabə Əliyeva, Səkinə Abutalıbova, Nazlı Kəngərli, Nəzakət Gülməmmədova, Hafizə Mirzəyeva və Bəhriyyə Novruzova iş yoldaşları İradə Əsgərovaya, anası
**LENA XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasının Laboratoriya şöbəsinin işçiləri iş yoldaşları Tahirə Həsənovaya, anası
**OFELYA XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzinin Reanimasiya və cərrahiyyə şöbəsinin işçiləri iş yoldaşları İradə Əsgərovaya, anası
**LENA XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzinin Poliklinika şöbəsinin həkimlərindən Sədaqət Yusifova, Mətanət Məmmədova, Südabə Sadiqova, İlhamə Nəsirli, Ləman Kərimova və tibb bacısı Südabə Əliyeva iş yoldaşları İradə Əsgərovaya, anası
**LENA XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzinin Poliklinika şöbəsinin həkimlərindən Məryəm Səlimli, Gülnarə Hümbətova, Gültəkin Əliyeva, Rəfayə Babayeva və Almaz Qəhrəmanova iş yoldaşları İradə Əsgərovaya, anası
**LENA XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Mühbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Hüseynov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və "Əcəmi" NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 3940. Sifariş № 1127